## AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

## Q Ə R A R

№012/506

Bakı şəhəri

"09" fevral 2026-cı il

**Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması ilə bağlı tədbirlər haqqında**

Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının (ÜHST) 03-05.02.2026-cı il tarixli rəsmi məlumatlarına əsasən, Bolqarıstan Respublikasının Pleven (Pleven) vilayətində, Meksika Birləşmiş Ştatlarının Sakatekas (Zacatecas) ştatında, Slovakiya Respublikasının Nitra (Nitriansky) diyarında **yüksək patogen quş qripi** (YPQQ) xəstəliyi qeydə alınmışdır.

Bununla əlaqədar, respublika ərazisinin qeyd olunan yoluxucu xəstəlikdən qorunması üçün Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik) tərəfindən zəruri tədbirlərin görülməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-3-cü yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** ÜHST-nin Bolqarıstan Respublikasının Pleven vilayətində, Meksika Birləşmiş Ştatlarının Sakatekas ştatında və Slovakiya Respublikasının Nitra diyarında YPQQ xəstəliyinin qeydə alınması barədə məlumatları nəzərə alınsın.

**2.** Bolqarıstan Respublikasının Pleven vilayətində, Meksika Birləşmiş Ştatlarının Sakatekas ştatında və Slovakiya Respublikasının Nitra diyarında, zonalaşma prinsipi nəzərə alınmaqla, YPQQ xəstəliyi baş vermiş təsərrüfatdan 10 km radiusda olan məsafədə yerləşən müəssisələrdən diri quş və inkubasiya yumurtalarının, quş ətinin, tərkibində quş emalı məhsulları olan quş ətindən və bütün növ quşçuluq məhsulundan alınan hazır ət məhsullarının (quş qripi viruslarının məhv edilməsini təmin edən termik emala məruz qalan mallar istisna olmaqla), quş yemləri və quş üçün yem əlavələrinin (bitki mənşəli, kimyəvi və mikrobioloji sintez yolu ilə alınmış yemlər və yem əlavələri istisna olmaqla), quşların saxlanması, kəsilməsi və emalı üçün istifadə olunmuş avadanlıqların idxalına ÜHST-nin "Quruda yaşayan heyvanların sağlamlıq Məcəlləsi"nin 10.4-cü Fəslinə uyğun olaraq müvəqqəti məhdudiyyət tətbiq olunsun.

**3.** Epizootik risk amillərinin mövcudluğu nəzərə alınaraq, bu qərarın 2-ci bəndində qeyd olunan ölkələrin sağlam ərazilərindən ölkəmizə idxal edilən həmin mallar yüksək risk qrupuna aid edilsin və daxil olan yükün hər partiyası laboratoriya müayinəsinə cəlb olunsun.

**4.** Xəstəliyin aşkarlandığı tarixə kimi, bu qərarın 2-ci bəndində qeyd olunan inzibati ərazi vahidlərindən ixracatçı ölkənin səlahiyyətli qurumunun nəzarəti altında ölkəmizə daşınmaq üçün yüklənmiş adıçəkilən malların idxalı laboratoriya müayinəsinə cəlb olunmaqla həyata keçirilsin.

**5.** Bu qərarın 2-ci bəndinin icrasının təmin edilməsi üçün, eyni zamanda sözügedən ölkələrin qeyd olunan inzibati ərazi vahidlərindən ölkə ərazisinə və yaxud həmin inzibati ərazi vahidlərindən tranzitlə keçib respublika ərazisinə daxil olan, habelə respublika ərazisindən tranzitlə

ƏSLİ İLƏ DÜZDÜR

Abbasov T.K.

09.02.2026

digər ölkələrə gedən nəqliyyat vasitələrinin gömrük-sərhəd buraxılış məntəqələrində dezinfeksiya edilməsi ilə bağlı Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə müraciət ünvanlansın.

6. Agentlik Aparatının İnformasiya təminatı və innovativ həllər şöbəsi bu qərarın Agentliyin rəsmi internet səhifəsində yerləşdirilməsini təmin etsin.

7. Agentlik Aparatının Hüquq, kadr və icraya nəzarət şöbəsi bu qərarın surətinin Agentlik Aparatının struktur bölmələrinə, eləcə də regional bölmələrinə, Naxçıvan Muxtar Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə və aidiyyəti dövlət orqanlarına göndərilməsini təmin etsin.

8. Agentlik Aparatının İdxal və ixraca nəzarət şöbəsi qeyd olunan məhsulların ölkəmizə idxalını həyata keçirən hüquqi və fiziki şəxslərin bu qərarla bağlı məlumatlandırılmasını təmin etsin.

**Heyvan sağlamlığı və bioloji təhlükəsizlik şöbəsinin müdiri, Respublikanın baş dövlət baytarlıq müfəttişi** **Qalib Əbdüləliyev**

Baş Dövlət Baytarlıq Müfəttişi
Chief Veterinary Officer

ƏSLİ İLƏ DÜZDÜR
Abbasov T.K.
09.02.2026